**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRİ**

# Ə M R

№ 21

**Bakı şəhəri** «06» mart 2013-cü **il**

"Bakı şəhərinin əhalisinə göstərilən ambulator mama-ginekoloji xidmətin təkmilləşdirilməsi barədə"

"Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 8.11-ci bəndini rəhbər tutaraq Bakı şəhər əhalisinə göstərilən ambulator mama-ginekoloji xidmətin təkmilləşdirilməsi məqsədilə

**ƏMR EDİRƏM:**

1. Bakı səhər Baş Səhiyyə İdarəsinin rəisi E. Əliyevaya tapşırılsın:

1.1. Bakı səhər Baş Səhiyyə İdarəsinin tabeliyində olan 10,16, 17, 23 nömrəli birləşmiş şəhər xəstəxanaları, 13, 32 nömrəli şəhər poliklinikaları və Xocasən sağlamlıq mərkəzi istisna olmaqla, ambulator-poliklinika yardımı göstərən digər tibb müəssisələrinin mama-ginekoloji kabinetləri ştat vahidləri ilə birlikdə ərazi üzrə qadın məsləhətxanalarının strukturuna daxil edilsin;

1.2. Bakı səhər Baş Səhiyyə İdarəsinin tabeliyində olan ambulator-poliklinika müəssisələrində fəaliyyət göstərən qadınlara baxış kabinetləri ləğv edilsin;

1.3. ləğv edilmiş kabinetlərin orta tibb işçiləri vakant vəzifələr hesabına işlə təmin edilsin;

1.4. qadınların profilaktik dövri müayinələrinin qadın məsləhətxanalarında və ya ərazi poliklinikalarının mama-ginekoloji şöbələrində və kabinetlərində həkim-ginekoloqlar tərəfindən aparılması təmin edilsin;

1.5. hamilə qadınlar antenatal xidmət göstərən müəssisə tərəfindən mütləq qaydada mübadilə kartı ilə təmin edilsin.

2. Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin direktoru C.Əsədzadəyə və İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru C.Məmmədova tapşırılsın ki, hamilə qadınların vahid elektron registrinın proqram modulu, məlumat bazasının yaradılması və tətbiq olunması təmin edilsin.

3. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 5 dekabr 2008-ci il tarixli 170 nömrəli əmri ilə təsdiq edilmiş "Qadın məsləhətxanalarında, ambulator-poliklinik tibb müəssisələrində mama-ginekoloji yardımın təşkili haqqında Təlimat"ın 4-cü hissəsinin 5-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"Hamilə qadınlar yaşadığı ərazi üzrə qadın məsləhətxanasında və ya poliklinikada qeydiyyata alınaraq onlara müvafiq tibbi xidmət göstərilir. Hamilə özəl və digər idarə tabeli tibb müəssisəsinə müraciət etdikdə, həmin qadına antenatal xidmət onun ərazi üzrə qadın məsləhətxanasında qeydiyyata alındığı barədə arayış təqdim edildikdən sonra göstərilir.

Həmin tibb müəssisəsi hamilə qadına göstərdiyi antenatal xidmət barədə hər ayın sonunda ərazi qadın məsləhətxanasına məlumat təqdim etməlidir".

4. Əmrin icrasına nəzarət Nazir müavini N. Əliyevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**